UOT 94″04/15″; 94″16/18″

# İSPAN İŞĞALINDAN SONRA FİLİPPİNDƏ İSLAM

**K.M.SOFİYEVA**
***Bakı Dövlət Universiteti***
***Sofiyeva@Rambler.RU***

*Məqalə Cənub-Şərqi Asiyanın adalar aləminin bir hissəsi olan Filippinin ispanlar tərəfindən işğalı, Filippin müsəlmanlarının müstəmləkəçilərə qarşı mübarizəsi məsələlərinə həsr olunmuşdur. Müəllif həmçinin işğal ərəfəsində Filippinin şimalında və cənubunda mövcud olmuş vəziyyəti də nəzərdən keçirmişdir.*

**Açar sözlər:** Filippin, Cənub – Şərqi Asiya, Mindanao adası, Sulu arxipelaqı, İslam

Cənub Şərqi Asiyanın adalar aləminin bir hissəsi olan Filippinin İspaniya tərəfindən işğal edilməsi Böyük coğrafi kəşflər dövründə baş vermiş şərqə Avropa ekspansiyasının ilk etapına aiddir. Cənubi və Cənub-Şərqi Asiya ölkələri Avropa müstəmləkəçilərini zəngin qızıl, həmçinin o vaxt qərbdə heç də qızıldan az qiymətləndirilməyən ədviyyat mənbəsi kimi cəlb edirdilər.

Asiya bazarı uğrunda mübarizə Portuqaliya və İspaniya arasında kəskin rəqabətə səbəb oldu. Portuqaliyalılar şərqə gedən dəniz yollarının kəşfiyyatında və mənimsənilməsində İspaniyanı demək olar ki, bir əsr qabaqlamışdılar. XV əsrin sonunda Portuqaliya Piriney yarımadasından Hindistana və Cənub-Şərqi Asiyayadək dəniz ağalığını öz əlinə almışdı. Buna görə də İspaniya Şərq bazarına yollar axtarmaq üçün qərb istiqamətində irəliləməyə məcbur oldu.

1521-ci ildə Hindistana və Molukk adalarına* qərbdən yol axtararkən Magellanın ekspedisiyası Filippin arxipelaqını kəşf etdi. 1521-ci ilin martında İspan konkistadorları Sebu adası yaxınlığında yerləşən kiçik Limasava adasına çıxdılar. Sonradan bu kasıb və əhalisi çox az olan adanı tərk edən Magellan Sebu adasına gəldi.

1521-ci ildə Magellanın ekspedisiyasının Sebu adasında lövbər salması arxipelaqın ispanlar tərəfindən kəşfinə və ələ keçirilməsinə gətirib çıxardı. İspan gəmiləri Filippin adalarına “Müqəddəs Lazar” günündə gəlib çatmışdılar. Buna görə də Magellan bütün arxipelaqı onun adı ilə adlandırdı (1, 42).

* Avropada bu adaları “Ədviyyat adaları” adlandırırdılar.

Artıq XVI əsrin ortalarında ispanlar arxipelaqda kifayət qədər möhkəmlənə bilmişdilər. 1542-ci ildə Müqəddəs Lazar adaları ispan şahzadəsi Filippin, gələcək kral II Filippin şərəfinə adlandırıldı (2, 40).

Yeni əlverişli rayonların uğurla işğal edilməsi və mənimsənilməsi, o cümlədən 1571-ci ildə Manila limanının yaradılması, ona gətirib çıxardı ki, ispanlar XVI əsrin sonunda nəinki arxipelaqın şimal və mərkəzi hissəsinin tam sahibinə çevrildilər, həm də ələ keçirilmiş ərazilərin əhalisini müvəffəqiyyətlə xristianlaşdırdılar (3, 443). Filippində Çin və Hindistanla müqayisə ediləcək böyük mədəniyyət ənənələri yox idi. İslamın avropalılar üçün qapalı olan dini fəaliyyət sferasını təmsil etdiyi qonşu İndoneziyadan fərqli olaraq Filippin əhalisi müstəmləkəçilərə nə dövlət sistemi, nə də öz dini ilə qarşı qoya bilmədi (4, 5).

Arxipelaqda qızıl və ədviyyat tapa bilməyən ispanlar bütün qüvvələrini ölkənin xristianlaşmasına yönəltdilər. İspanların gəlişinə qədər Filippinin şimal və mərkəzi rayonlarında hələ vahid din formalaşmamışdı. Burada əhalinin dini görüşləri animizmə əsaslanırdı. İbtidai-icma quruluşunun müxtəlif dağılma mərhələlərində olan qəbilələrdə animistik təsəvvürlərdən politeizm yaranmışdı. Baxmayaraq ki, çoxsaylı ruhlara əvvəlki inam yenə də qalırdı.

XVI əsrdən başlayaraq şimal və mərkəzi rayonlarda, cənubda – Mindanao və Suluda artıq möhkəmlənmiş və təsdiqlənmiş İslam dini yayılmağa başladı. İslam dini Filippinin şimalına İndoneziya sultanlığı olan Bruneydən keçirdi. İndoneziyalıların ticarət məskənləri yerli əhali arasında İslam təbliğatı mərkəzləri rolunu oynayırdılar. Lakin burada islamlaşma prosesi kütləvi xarakter daşımayıb, bu ticarət məskənləri və faktoriyaları ilə qonşuluqda yerləşən rayonların yuxarı təbəqəsinin az bir hissəsinə toxunurdu. Beləliklə, ispan işğalı ərəfəsində Lusonda və Visay adalarında İslamın yayılma prosesi hələ rüşeym mərhələsində idi. Bu proses ispan müstəmləkəçiləri tərəfindən dayandırıldı.

“Parçala və hökm sür” prinsipindən istifadə edən ispanlar bir qəbiləni digərinə qarşı qoyaraq, ölkəni nisbətən tez ələ keçirə bildilər. Buna görə də, ispanların Filippini birləşdirməsi, bütöv filippin milləti yaratması fikirləri ilə razılaşmaq olmaz.

Filippin milləti ispanların iradəsi ilə deyil, onların iradəsinə zidd olaraq müstəmləkəçilərə qarşı mübarizədə yaranmışdır. Bu mübarizə zamanı milli özünüdərk hissi formalaşırdı. Filippin Asiyada xristian dininin hakim din olduğu yeganə ölkədir. Əhalinin 84% katolikdir (1, 4). Yalnız müsəlman cənubi, “Moro” ölkəsi*, XIX əsrə qədər üsyankar periferiya olaraq qaldı (5, 21). Luson adasının çətinkeçilən daxili rayonlarının dağlı qəbilələri də ispan müstəmləkəçilərinin nəzarətindən kənarda qaldı. Baxmayaraq ki, onlar formal olaraq İspaniyanın hakimiyyəti altında idilər. Bu rayonları xristianlaşdırmaq və müstəmləkəyə çevrilmək cəhdləri heç bir nəticə vermədi. Cənub rayonlarına ispan ekspansiyası isə, Sulu arxipelaqında və Mindanao adasının

* ispanlar müsəlmanlar yaşayan ərazini belə adlandırırdılar

mərkəzi və cənub ərazilərində məskunlaşmış müsəlman əhali tərəfindən dayandırıldı.

Cənub rayonlarının Avropa müstəmləkəçilərinə qarşı müvəffəqiyyətlə müqavimət göstərməsində əsas faktor xarici kömək idi ki, bu kömək qonşu Malayya-İndoneziya regionunun hakim müsəlman dairələri tərəfindən göstərilirdi. İndoneziya sultanlıqları ilə hərbi-siyasi ittifaqa Filippin və İndoneziya hakim sülalələri arasındakı qohumluq əlaqələri, din birliyi və nəhayət Cənub-Şərgi Asiyanın adalar aləmində dəniz və ticarət inhisarını saxlamaq istəyən indoneziyalıların ticarət maraqları səbəb olurdu.

XVI əsrin sonundan – XIX əsrin II yarısınadək davam etmiş Filippin müsəlmanların ispan müstəmləkəçilərinə qarşı uzunsürən mübarizəsi Filippin tarixinə "Moro müharibələri" kimi daxil olmuşdur. Müsəlmanlarla ispan müstəmləkəçiləri arasında müharibələr hər iki tərəfdən "həqiqi din"in müdafiəsi şüarı ilə aparılırdı. İslam müsəlman xalqlar üçün müstəmləkəçilərə qarşı mübarizədə ideoloji bayraq rolunu oynayırdı. Avropa işğalçılarına göstərilən müqavimət "kafirlərə" qarşı müharibə forması alırdı.

Hər il cənub-qərb mussonları ilə moro qayıqları Visay adalarına doğru yönəlirdilər. Çox vaxt onlar Luson adası sahillərinə də gəlib çıxırdılar. Bu səfərlər nəticəsində onlar dağıdılmış kilsələrdən qiymətli əşyalar və çoxlu əsir-xristianlar aparırdılar. Əsir götürülmüş ispanları pul əvəzində Manilaya qaytarırdılar, xristian filippinliləri isə qula çevrilirdilər. Onlardan hərbi və ticarət gəmilərində avarçəkən kimi istifadə edirdilər. İslamı qəbul edən əsir filippinlilər azad edilirdilər və onların çoxu Filippinin xristian rayonlarına dəniz hücumlarının iştirakçıları olurdular. XVII əsrin əvvəllərinə qədər müsəlmanların mübarizəsi dəniz quldurluğu ilə məhdudlaşırdı. Sultanlıqların hakim dairələri iri hərbi ekspedisiyalar təşkil etməyə cəhd göstərmirdilər.

Cənub-Şərqi Asiyaya holland ekspansiyanın başlaması ilə Filippin müsəlmanlarının mübarizəsi yeni yüksəliş mərhələsinə qədəm qoydu. Yaranmış vəziyyət, ispanların güc və diqqətinin cənub rayonlarından yayınması müsəlmanlara aktiv hücum əməliyyalarına keçməyə imkan verdi. Onlar Filippində ispan mövqelərinin zəiflənməsinə, öz ərazilərinin genişlənməsinə və möhkəmlənməsinə ümid edirdilər. Sultanlıqların hakimlərinin hərbi-strateji planlarında ümumi düşmən olan ispanlara qarşı mübarizədə potensial müttəfiq kimi hollandlardan hərbi yardım almaq imkanı nəzərdə tutulurdu. İki cəbhədə hollandlara və müsəlmanlara qarşı – mübarizə aparmaq məcburiyyətində qalan ispan hökuməti cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün müsəlmanlara münasibətdə mürəkkəb hərbi-diplomatik manevrlərə əl atmalı olurdu.

XVII əsrin 20-30-cu illərində Magindanao və Sulu knyazlıqları arasında 20 ilə yaxın davam edən çəkişmə və hərbi konfliktlərə son qoyuldu və ispan müstəmləkəçilərinə qarşı hərbi kompaniyanın təşkili üçün əlverişli şərait yarandı. XVII əsrin 40-cı illərin ortalarında Magindanao sultanlığının ərazisi demək olar ki, bütün Mindanao adasını əhatə edirdi (2, 67).

XVIII əsrin 60-cı illərinə qədər Magindanao və Sulu müsəlmanları ispanları Mindanao adasının qərbindən çıxarmaq üçün reydlər təşkil edirdilər. Lakin onların bu cəhdləri nəticəsiz qaldı. Buna baxmayaraq, ispanların Mindanaonun daxili rayonlarına irəliləmək və Sulu arxipelaqını ələ keçirmək cəhdləri də baş tutmadı.

XIX əsrin I yarısında ispan müstəmləkə administrasiyası müsəlman ərazilərini işğal etmək üçün kifayət qədər hərbi gücə malik deyildi. 30-cu illərin sonunda Sulu rayonunda ispanların əsas rəqibləri ingilislər və fransızlar idi.

Filippinin cənub rayonlarını öz siyasi təsiri altına salmaq uğrunda böyük dövlətlərin mübarizəsi, ərazi işğallarına cəhd göstərilməsi, İspaniyanın avropalı rəqibləri tərəfindən hərbi-siyasi aksiyalar həyata keçirilməsi təhlükəsi – bütün bu faktorlar ispan müstəmləkəçilərini müsəlman sultanlıqlarına hücumu gücləndirməyə, onların işğalını sürətləndirməyə, müstəmləkələrinə birləşdirməyə vadar edirdi. Sulu arxipelaqının və Mindanaonun müsəlman rayonlarının işğal edilməsi prosesi XIX əsrin ortalarından demək olar ki, Filippində ispan müstəmləkə ağalığının sonuna qədər davam etdi (2, 115).

Bundan sonra da, hətta müasir dövrdə də cənub Filippinin digər hissəsindən xeyli fərqlənir. Ümumiyyətlə, müsəlman azlığı problemi həmişə Filippinin həyatında mövcud olmuşdur, elə indi də vardır. Ölkədə müsəlmanların sayı 2,3 milyondur. Bu ümumi əhalinin 5,3%-ni təşkil edir (6, 30). Müsəlman millətçiləri cənub əyalətlərinin (Mindanao adasında) muxtariyyəti uğrunda aktiv mübarizə aparırlar (7, 478). Onlar bu məqsədlə Milli Qurtuluş Cəbhəsi yaratmışlar. 1990-cı ildə hətta Filippinin cənubunda "Müstəqil İslam Respublikası"nın yarandığı elan edilmişdi. Lakin bu respublika heç bir dövlət tərəfindən tanınmır. Rəsmi hökumət isə Mindanaonu Filippinin ayrılmaz tərkib hissəsi hesab edir.

1991-ci ildə Pinatubo vulkanının püskürəməsi nəticəsində ölkə böyük itkilərə məruz qaldığı üçün silahlı müxalifət qüvvələri mübarizəni müəyyən dövrə qədər dayandıracaqlarını bildirdilər. Yalnız 1996-cı ildə hökumət onlarla hərbi əməliyyatların dayandırılması haqqında razılığa gələ bildi. Prezident F.Ramos və MQC-nın lideri Nur Misuari müvafiq müqavilə imzaladılar.

Lakin bundan sonra da pərakəndə partizan dəstələri fəaliyyətlərini davam etdirirdilər. Bir müddətdən sonra MQC də müqavilənin qüvvədən düşdüyünü elan etdi və 1997-ci ildə hərbi əməliyyatlar yenidən başladı. Prezident Ramos danışıqlara başlamağa hazır olduğunu bildirdi, bunun üçün ilk olaraq atəşkəs şərti irəli sürülürdü. MQC liderləri isə danışıqlar yolu ilə istiqlaliyyət əldə edəcəklərinə inanmır, hərbi əməliyyaları davam etdirirdilər.

2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən hadisələrdən sonra burada vəziyyət dəyişdi. Beynəlxalq terrorizmlə mübarizə adı ilə Filippinə gələn amerikan hərbi hissələri üsyançıların hərbi qüdrətini zəiflədə bildilər.

**ƏDƏBİYYAT**


1. Лауринчюкас А.К. Горсть риса. М.: Наука, 1981, 72 с.

2. Левтонова Ю.О. История Филиппин. М.: Наука, 1979, 295 с.
3. Васильев Л.С. История Востока. В 2 х-т. Т.I, М.: Высшая школа, 2005, 512 с.
4. Подберезский И.В. Филиппины. Поиски самобытности. М.: Наука, 1984, 160 т.
5. Левинсон Г.И. Филиппины. М.: Наука, 1953, 64 с.
6. Ионова А.И. Ислам в Юго-Восточной Азии: Проблемы современной идейной эволюции. М.: Наука, 1981, 264 с.
7. Васильев Л.С. История Востока. В 2 х-т. Т. II, М.: Высшая школа, 2005, 575 с.

## ИСЛАМ В ФИЛИППИНАХ ПОСЛЕ ИСПАНСКИХ ЗАВОЕВАНИЙ

**К.М.СОФИЕВА**

**РЕЗЮМЕ**

Статья посвящена вопросам завоевания испанцами одной из частей островного мира Юго-Восточной Азии – Филиппин, борьбы филиппинских мусульман против оккупантов. Автор также рассматривает положение на севере и юге Филиппин накануне оккупации.

**Ключевые слова:** Филиппины, Юго – Восточная Азия, остров Минданао, архипелаг Сулу, Ислам

## ISLAM IN THE PHILIPPINES AFTER SPANISH CONQUEST

**K.M.SOFIYEVA**

**SUMMARY**

The article investigates the questions of conquest of the Philippines by Spain and the struggle of Philippinian Muslims against the occupiers. The author also studies the situation in the north and south of the Philippines before occupation.

**Key words:** The Philippines, South – East Asia, Mindanau island, The Sulu archipelago, Islam